Azərbaycan Respublikası Prezidenti yanında Təhsil üzrə Komissiya tərəfindən barələrində müsbət qərar verilmiş həmin tələbələr təhsilini Böyük Britaniya (12 nəfər), ABŞ (3 nəfər), Kanada (2 nəfər), İsveçrə (1 nəfər), Almaniya (1 nəfər), Avstriya (1 nəfər), Türkiyə (1 nəfər), Avstraliya (1 nəfər), Belçika (1 nəfər) və Niderlandda (1 nəfər) bakalavriat (9 nəfər), magistratura (14 nəfər) və doktorantura (1 nəfər) səviyyələrində iqtisadiyyat, mühasibat uçotu, maliyyə, riyaziyyat, kompüter elmləri, elektrik mühəndisliyi, turizm, hüquq, diplomatiya və siyasi elmlər ixtisasları üzrə davam etdirəcəklər.

Əsas məqsədi azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almasını və ölkənin inkişafında yaxından iştirak etməsini təmin etmək olan Dövlət Proqramına qəbul olunmuş tələbələri təbrik edir, onlara təhsillərində uğurlar arzulayırıq. Təhsil Nazirliyi xaricdə təhsil alan tələbələrin ölkəmizə qayıdaraq müxtəlif dövlət qurumlarında, beynəlxalq təşkilatlarda, bank-maliyyə sistemində, eləcə də özəl sektorda uğurla çalışacağına, Azərbaycanda idarəetmənin, mədəniyyətin, elmin, təhsilin və səhiyyənin inkişafının yeni bir mərhələyə keçidini təmin etmək vəzifəsini şərəflə yerinə yetirəcəklərinə əminliyini ifadə edir.

Qeyd edək ki, Dövlət Proqramına 2013-2014-cü tədris ili üzrə sənəd qəbulu 15 avqust 2013-cü il tarixində başa çatacaqdır.

**Azərbaycan Respublikası Prezidenti yanında Təhsil üzrə Komissiyanın barələrində müsbət qərar verdiyi daha 24 namizədin siyahısı:**

1. Abdullayev Əli Ceyhun oğlu
2. Ağayev Vüqar Rakif oğlu
3. Bayramov Elşən Arif oğlu
4. Bayramov Orxan Asəf oğlu
5. Cəfərov Ramin Muxtar oğlu
6. Cəfərova Leyla Fərhad qızı
7. Əhmədov Əli İsmayıl oğlu
8. Əliyev Ayxan Elxan oğlu
9. Əsgərov İlkin Siyavuş oğlu
10. İbrahimli Rəşid Rahid oğlu
11. İbrahimov Nicat Fuad oğlu
12. İsgəndərov Ceyhun Cəlal oğlu
13. İslamova Xədicə İlham qızı
14. İsmayılov Elçin Aydın oğlu
15. İsmayılov Orxan Qalib oğlu

16. Kərimova Yemən Nizami qızı

17. Mahmudova Fidan Əfqan qızı

18. Mehdiyev Qismət Qiymət oğlu

19. Mustafayeva Könül Ceyhun qızı

20. Qəribli Mahir Toğrul oğlu

21. Şabanov Sənan Çingiz oğlu

22. Sadıqova Nigar Adil qızı

23. Xəlilli Toğrul Azər oğlu

24. Xəlilli Aytac Nazim qızı